

# Məqsəd müstəqil Azərbaycanı inkişaf etmiş cəmiyyətə çevirməkdir

***Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının müstəqil sosial-iqtisadi inkişaf proqramını böyük uzaqgörənliklə formalaşdırmış və reallaşdırmış, iqtisadi müstəqillik uğrunda mübarizənin bünövrəsini qoymuşdur.***

Siyasi müstəqilliyin və onun iqtisadiyyat cəbhəsinin daha da möhkəmləndirilməsinin sükanı 18 ildir ki, ulu öndərin layiqli varisi cənab İlham Əliyevin əlindədir. Əminliklə vurğulamaq lazımdır ki, Azərbaycanın iqtisadi müstəqilliyinin reallaşdırılması İlham Əliyev siyasətinin tarixi nailiyyətidir.

***(ardı 8-ci səhifədə)***

# Məqsəd müstəqil Azərbaycanı inkişaf etmiş cəmiyyətə çevirməkdir

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev öz üzərinə düşən tarixi missiyanı böyük həssaslıqla dəyərləndirərək, ölkənin strateji kursunu bütün sahələr üzrə qəbul edilən və elmi cəhətdən əsaslandırılmış proqram sənədləri ilə müəyyən etdi. Əslində, MDB məkanında ilk dəfə olaraq sosial-iqtisadi inkişafı müasir prinsiplər əsasında tərtib edilmiş Dövlət Proqramları ilə tənzimləyərək, ölkəni yeni üfüqlərə, iqtisadi müstəqilliyin təmin olunmasına doğru istiqamətləndirdi. İqtisadi potensialın ildən-ilə güclənməsi, əhalinin maddi həyat şəraitinin yaxşılaşması, iqtisadi-siyasi islahatların aparılması Azərbaycanın gələcəyinə hesablanan məqsədyönlü dövlət proqramlarının ana xəttini təşkil edir.

17 noyabr 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında o, proqram xarakterli bəyanatla çıxış etdi: "Azərbaycanda son illər ərzində aparılan iqtisadi siyasət çox uğurlu olubdur və Azərbaycanın gələcək inkişafı üçün də gözəl təməl yaradıbdır. Bizim hamımızın vəzifəsidir ki, bu siyasəti davam etdirək, əldə olunan bu uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməlin üzərində müasir Azərbaycanı yaradaq".

İlham Əliyevin ardıcıl olaraq yeritdiyi qlobal və milli dəyərlərə əsaslanan strateji kurs, məqsədyönlü və çevik islahatlar ölkənin qısa müddət ərzində keyfiyyətcə yeni və daha sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. İnkişaf sürətinə görə ölkə regionda və bütün dünyada lider dövlətə çevrilmişdir. İqtisadi artım sürətinin, yeni ümumi daxili məhsul istehsalının artım sürətinin yüksək olması buna bariz nümunədir. İqtisadiyyat inkişafın təməl daşıdır. Bu gün regionun lider dövləti olan Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə kimi tanınır. Yüksək iqtisadi göstəricilərə malik olan Azərbaycanın son illər müxtəlif sferalarda əldə etdiyi nailiyyətlər ardıcıl şəkildə bir-birini tamamlayır, coğrafiyasını genişləndirir.

Ötən illərdə Azərbaycanın dinamik inkişafını təmin edən əsas amillərdən biri də neftdən əldə olunan vəsaitin regionların davamlı və tarazlı inkişafına yönəldilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərdir. Ölkə regionlarının inkişafına xüsusi önəm verən İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) həyata keçirilməsi ölkə regionlarının kompleks inkişafına, o cümlədən, infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə, qeyri-neft sektorunun inkişafına səbəb olmuşdur.

İnformasiya cəmiyyəti adlanan müasir cəmiyyətdə elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsal prosesinin bütün həlqələrində texnoloji istehsal üsulunun transformasiyası baş verir, ölkələrdə iqtisadiyyatın strukturu, iqtisadi inkişafın xarakteri, həyat tərzi, dəyərlər sistemi və motivasiya keyfiyyətcə yeniləşir, "ictimai tərəqqi" anlayışı və onun meyarları haqqında təsəvvürlər dəyişir. Təcrübə göstərir ki, yeni modernləşmə müasir iqtisadi sistemlərin dayanıqlı inkişafının həlledici amilidir. Tanınmış ingilis iqtisadçısı Braynan Tvissin qeyd etdiyi kimi, müasir dövrdə "mütəxəssislər öz səylərini gələcəkdə meydana çıxacaq ehtiyacların ödənilməsinə yönəltməlidirlər, diqqət yeni vəzifələrin həlli üçün yeni texnologiyanın tətbiqi yollarının tapılmasına yönəldilməlidir".

"Sənaye potensialının artımı bizim prioritet məqsədimiz olmalıdır", - deyən İlham Əliyev ən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi məsələsini bütün kəskinliyi ilə qarşıya qoymuşdur. Bu resurs amillərinə əsaslanan iqtisadiyyatdan, qlobal proseslərin tələb etdiyi innovasiya yolu ilə inkişaf edən iqtisadiyyata keçilməsi üçün olduqca vacibdir. Prezidentin təkidlə tələb etdiyi bir mühüm məsələnin - iqtisadiyyatın neft amillərindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi probleminin həlli də modernləşmə və innovasiyaların intensiv tətbiqi ilə əlaqədardır.

Prezident İlham Əliyev qətiyyətlə vurğulayır: "Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək təbii resurslarımızı insan kapitalına çeviririk. Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır, eyni zamanda, bizim milli adət-ənənələrimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir".

Azərbaycan bu əsrdə inkişaf etmək üçün bütün təbii imkanlara malikdir. Ölkə başçısı və Azərbaycan hökuməti ölkənin dinamik və sürətli inkişafı üçün yaradıcı, məqsədli və sistemli siyasət aparır. Problemləri ardıcıl olaraq aradan qaldırmaq, yaxşı ənənələri inkişaf etdirməyə imkan verən və hesablanmış risklərin əvəzində stimullaşdırıcı bir mühit yaratmaq qarşıya məqsəd olaraq qoyulmuşdur. Bununla belə, bu gələcək uğurun əsas elementləri - yeni ideyalar yaratmaq və bu ideyaları ölkənin innovativ və uğurlu məhsulları, xidmətləri və yeni tipli şirkətləri timsalında həyata keçirmək bacarığından asılıdır.

Bu, öz gücünə əmin olan, yeni imkanları tədqiq etmək və uğurla həyata keçirmək istəyən yeni azərbaycanlı nəslini yetişdirmək üçün Azərbaycan dövlətinin qarşıya qoyduğu məqsədin bilavasitə təsdiqidir. Bu strategiya alimlərimizin, tədqiqatçılarımızın və sahibkarlarımızın birgə səyləri nəticəsində elm və texnologiyalarda mükəmməlliyə nail olmaq, daha yüksək keyfiyyətli işçi qüvvəsi yaratmaq və yeni ideyalardan istehsal kommersiya məqsədləri üçün istifadə olunduqda tam həcmdə yerinə yetiriləcəkdir.



İnnovasiya təkcə yeni və yüksək texnologiyalaşdırılmış sənaye sahələrindən ibarət deyil, o, həm də bizim kənd təsərrüfatı, yüngül sənaye və hasilat sənayesi kimi ənənəvi sahələrimizin də inkişafı üçün əsasdır. Burada vacib məsələlərdən biri də özəl sektorun elm, təhsil və tədqiqat institutlarının innovasiya sahəsində öhdəliklər qəbul etmələri və hökumətin bu sahədə nəzərdə tutduğu proqramların həyata keçirilməsində və qarşıya qoyduğu məqsədlərə çatmasında ona yardımçı olmasıdır.

Prezident İlham Əliyev keçid dövrünün başa çatdığını elan etməklə inkişafda yeni mərhələnin başlandığını və keçən onilliklərdə problemlərin həlli üçün istifadə edilən üsul və yanaşmaların bu yeni, bilik və imkanlar mərhələsi üçün kifayət olmadığını göstərdi. Artıq qloballaşma erasında özünü qabarıq biruzə verən fakt insan və intellektual resursların, inkişafın ənənəvi dəyərləri – torpaq, əmək və kapital ehtiyatlarından önə keçməsidir. Ona görə də müasir inkişaf mərhələsində yaradıcılıq, işgüzarlıq, sahibkarlıq və digər innovativ amillər əsas götürülməlidir.

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli fərmanı ilə yaradılmış "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu" innovativ fəaliyyətləri daha da stimullaşdıracaq. Azərbaycanda təmin edilən yüksək iqtisadi artım, işsizliyin və yoxsulluğun azalması, islahatların yüksək sürətlə aparılması təbii olaraq əlverişli sahibkarlıq mühiti ilə müşayiət olunur ki, bu da düzgün makro-iqtisadi siyasətin həyata keçirilməsinin nəticəsidir.

2008-ci ildə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı və təqdim etdi. Dünya İqtisadi Forumu tərəfindən açıqlanan "Qlobal Rəqabət Hesabatı 2009-2010" adlı sənədlə Azərbaycan iqtisadiyyatın rəqabət qabiliyyətinin qənaətbəxş olduğu qeyd edilir. Dünyanın 133 ölkəsini, o cümlədən, postsovet dövlətlərini əhatə edən hesabatdan aydın olur ki, azad rəqabət şəraitinin yaradılması baxımından Azərbaycan yenə də seçilənlər sırasında yer alıb. Elə bunun nəticəsidir ki, qlobal rəqabətlik indeksinə əsasən, ölkəmiz 2008-ci illə müqayisədə 18 pillə irəliləyib.

İlham Əliyevin siyasətinin ən mühüm istiqamətlərindən biri Azərbaycanın dünya iqtisadi tempinə inteqrasiyasının sürətləndirilməsi, ticarət əlaqələrin genişləndirilməsi sahəsində görülən genişmiqyaslı tədbirlərdir. Hazırda Azərbaycan dünyanın 140-a yaxın ölkəsi ilə qarşılıqlı ticarət əməliyyatları aparır. Xarici ticarət dövriyyəsi, ixrac və idxal əməliyyatlarının həcmi ildən-ilə artır.

Azərbaycan mövcud təbii sərvətlərdən istifadə etməklə iqtisadi infrastrukturunu dünya standartları səviyyəsində quraraq qloballaşan dünyanın enerji təchizatının ödənməsi prosesində xüsusi əhəmiyyət kəsb edir. Qlobal əhəmiyyətli iqtisadi layihələr olan TRASECA, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərlərinin reallaşması və Bakı-Tbilisi-Qars dəmir yol xəttinin tikilməsi, "Şahdəniz" qaz yatağının işə düşməsi ölkəmizin nüfuzunu bütün dünyada artırır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir:"Biz bölgədə aparıcı dövlətə çevrilmişik. Bu, artıq reallıqdır. Reallıq hamı tərəfindən qəbul olunub. Bizim qərarlarımız, bizim işlərimiz bütün bölgəyə öz təsirini göstərir. Biz də istəyirik ki, Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin. Bizim imkanlarımız daha da artsın, siyasi çəkimiz artsın, beynəlxalq müstəvidə istədiyimizə nail ola bilək, öz doğma torpaqlarımızı işğalçılardan azad edə bilək və Azərbaycan xalqının normal, yaxşı yaşamasını təmin edə bilək. Bunu etmək üçün Azərbaycan güclənməlidir. Bu proses artıq baş verir".

Hörmətli Prezidentimizin önə çəkdiyi "İndi bizim məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir" ideyası, əslində, Azərbaycanın uzunmüddətli inkişaf strategiyasıdır və bütün dövlət-təşkilatçılıq tədbirləri həmin strategiyanın həyata keçirilməsinə yönəldilmişdir. İlham Əliyevin başçılığı ilə həyata keçirilən tarazlaşdırıcı siyasət nəticəsində daim artan iqtisadi potensial Azərbaycana müstəqil siyasət yeridir, heç bir xarici təsirlərə boyun əymir.

Bu illərdə Azərbaycan, xüsusən, karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması məsələsində, Bakı-Tbilisi-Qars dəmir yol xəttinin çəkilməsi, Naxçıvan-Qars dəmiryolunun inşasına qərar verilməsində tam müstəqil siyasi kurs yürüdüb. Dövlət başçısı İlham Əliyev ölkəmizin Avrasiya məkanının mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi, rabitə sisteminin, informasiya texnologiyalarının sürətli inkişafı üçün də nəhəng işlər görür.

İlham Əliyevin prezidentlik fəaliyyətinin ali qayəsi informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq "neft kapitalının insan kapitalına" çevrilməsini təmin etmək, ölkədə mövcud olan zəngin insan potensialını inkişaf etdirməkdir. "Biz çalışırıq, səhiyyə, xüsusilə, təhsillə bağlı məsələlərə böyük diqqət yetirək ki, bizim gənclərimiz bilikli olsunlar, həyatda öz yerini tuta bilsinlər, sağlam böyüsünlər və ölkənin inkişafında fəal iştirak etsinlər".

Bu məqsədin həyata keçirilməsi üçün elm və bütövlükdə, sosial sahənin inkişafına, ölkəmizdə təhsil və səhiyyə ocaqlarının tikintisinə, onların maddi-texniki bazasının müasir tələblərə uyğun qurulmasına xüsusi diqqət yetirilir. Onun prezidentliyi dövründə yüzlərlə yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Bu sərəncama əsasən minlərlə gənc xarici ölkələrdə təhsil almaq imkanı əldə etmişdir.

İlham Əliyevin prezidentliyi dövründə dövlətin müdafiə qüdrətinin gücləndirilməsi, ordunun müdafiə qabiliyyətinin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində xüsusən radikal addımlar atılmış, bu sahəyə ayrılan dövlət investisiya xərcləri ildən-ilə artırılmışdır. 30 il işğal altında olmuş doğma Qarabağın azad edilməsi Azərbaycanın sosial-iqtisadi gücünü və beynəlxalq nüfuzunu kifayət qədər artırmışdır.

Dövlət başçısı respublikanın sosial-iqtisadi inkişafı ilə paralel aparılan demokratikləşmə proseslərini də Azərbaycanın gələcək yüksəlişinin əsası hesab edir və onun təkmilləşdirilməsinə mühüm əhəmiyyət verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycanın daxili və xarici siyasəti yalnız regional deyil, qlobal miqyasda situasiyaya əhəmiyyətli təsir göstərir və gələcəkdə də göstərəcəkdir".

***Dünyamalı VƏLİYEV,***
***iqtisad üzrə elmlər doktoru,***
***AMEA Şərqşünaslıq İnstitutunun "Mərkəzi Asiya ölkələri" şöbəsinin müdiri***